**Sənaye sahələrinin inkişafında mühüm irəliləyiş hiss olunur**

İqtisadiyyatın şaxələndirilməsi tədbirləri çərçivəsində sənayenin müxtəlif sahələrinin inkişafına yönəlmiş kompleks tədbirlər səmərəli nəticələrini göstərir. 2012-ci ilin yanvar-avqust aylarında ümumi daxili məhsul istehsalında sənaye sektorunun xüsusi çəkisinin artımı müşahidə olunub.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu müddətdə 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsul istehsalı 1,3%, yaxud müqayisəli qiymətlərlə 434,7 milyon manat artaraq 35,1 milyard manata çatıb. ÜDM-in 67,3%-i məhsul istehsalı sahələrində, o cümlədən 51,9%-i sənayedə, 9,6%-i inşaat kompleksində, 5,8%-i kənd təsərrüfatında yaradılıb.

Ümumi daxili məhsulun tərkibində xüsusi çəkiyə malik sənaye sahələrində, ümumilikdə, 23 milyard manatlıq məhsul istehsal olunub. Həmin məhsulun 76,5%-i mədənçıxarma bölməsində, 18,2%-i emal bölməsində, 4,8%-i elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində, 0,5%-i su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində qeydə alınıb.

Ötən müddətdə sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 7,9% artıb. Eləcə də emal sektorunda qida məhsulları istehsalı 3,3%, toxuculuq sənayesi məhsulları istehsalı 2,2 dəfə, geyim istehsalı 32,0%, poliqrafiya fəaliyyəti 1,9 dəfə, rezin və plastik məmulatlar istehsalı 3 dəfə, tikinti materialları istehsalı 22,7%, metallurgiya sənayesi məhsulları istehsalı 13,8%, hazır metal məmulatları istehsalı 1,8 dəfə, elektrik avadanlıqları istehsalı 2,4 dəfə, sair nəqliyyat vasitələri istehsalı 19,4%, mebel istehsalı 3,2 dəfə, maşın və avadanlıqların quraşdırılması və təmiri 16,1% artıb.

2012-ci il in ötən dövründə Bakı şəhərində Metal konstruksiyalar zavodu, Sumqayıt şəhərində «Azgüntex» zavodu, Sumqayıt Texnologiyalar Parkında (STP) dəqiq emal mərkəzləri və ağır maşınqayırma zavodları və digər obyektlər istifadəyə verilib. İqtisadçı ekspertlərin fikrincə, son illərdə yaradılan müasir istehsal infrastrukturuna malik sənaye parkları iqtisadiyyatın ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, məşğulluğun təminatı, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan dövlət proqramlarında da sənayenin inkişafına xidmət edən məsələlər xüsusi diqqət mərkəzində olub. Aidiyyəti dövlət qurumlarının mütəxəssisləri bir sıra ölkələrdə, o cümlədən Türkiyə, Almaniya, Polşa, Latviya, Çin və Cənubi Koreyada olaraq bu sahədəki mövcud təcrübə ilə yaxından tanış olublar. BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO), Türkiyənin Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA) ekspertlərinin tövsiyələri nəzərə alınmaqla bu sahədə müvafiq təkliflər hazırlanıb.

Sumqayıt Texnologiyalar Parkının sənayenin yeni sahələrinin inkişafına əsaslı təkan verdiyini xüsusi qeyd etmək lazımdır. Müəssisədə müasir texnologiyalar əsasında respublika üçün mühüm əhəmiyyət kəsb edən və ixrac potensialına malik elektroenergetika və maşınqayırma sənayesi məhsulları istehsal edilir. 17 zavoddan ibarət olan STP-də o cümlədən müxtəlif tip kabellər, transformatorlar, yüksək gərginlikli avadanlıqlar, hidroturbinlər, su nasosları, elektrik mühərrikləri, borular, texniki qazlar (arqon, oksigen, azot və s.) istehsal edilir. Həmin sənaye müəssisələrinin fəaliyyətə başlaması həm də çoxlu sayda yuxarı məvacibli iş yerlərinin açılmasına imkan yaradıb.

Son illər sənayenin metallurgiya sahəsində də əsaslı irəliləyişlər hiss olunur. Metallurgiya sənayesini qara və əlvan metal filizlərinin hasilatı, saflaşdırılması, habelə flüs və odadavamlı materialların istehsalı ilə məşğul olan müəssisələr, boru-prokat, alüminium, poladtökmə və təkrar emal zavodları təmsil edir. Respublikada dəmir, mis, polimetal, nadir və qiymətli metal filizləri kimi metallurgiya xammalının olması sözügedən sənaye sahəsinin inkişafına əlverişli zəmin yaradır. Neft-qaz sənayesinin tələbatı ilə əlaqədar qara metallurgiya sənayesi zadovları əsasən Gəncə-Daşkəsən və Abşeron metallurgiya bazalarında formalaşıb. Qara metallurgiyanın əsas müəssisələrindən olan Daşkəsəndəki «Filizsaflaşdırma» ASC-nin yenidən qurulması respublikada qara metallurgiya sənayesinin inkişafında əhəmiyyətli rol oynayıb.

Dövlət proqramları çərçivəsində yüngül sənayenin inkişafı istiqamətində də mühüm addımlar atırılır. Proqramın icrası toxuculuq və tikiş sənayesinin inkişafına müsbət təsirini göstərib,

regionlarda çoxsaylı analoji sənaye müəssisələri fəaliyyətə başlayıb. Hazırda Azərbaycanda pambığın ilkin emalından tutmuş onun son məhsula qədər çatdırılmasını nəzərdə tutan kompleks müəssisələr mövcuddur. 19 zavodu və bunlara təhkim olunmuş 106 tədarük məntəqəsini özündə birləşdirən pambıqtəmizləmə sənayesinin ümumi istehsal gücü 1300 min tondur. Bundan başqa, son illərdə ölkədə barama, yun, gön-dəri və həmçinin kimyəvi liflərə əsaslanan toxuculuq müəssisələri fəaliyyətə başlayıb. Yüngül sənaye məhsullarının istehsalı üzrə ixtisaslaşmış müəssisələr əsasən Bakı, Sumqayıt, Gəncə, Şəki, Yevlax şəhərlərində, eləcə də Naxçıvan MR-də fəaliyyət göstərir.

S.MUSTAFAYEV